**Dövlət Statistika Komitəsində "İnformasiya azadlığının təmin edilməsi" mövzusunda treninq keçirilmişdir**



"Açıq Hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 17 oktyabr 2012-ci il tarixli 29/1 nömrəli kollegiya qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində Milli Fəaliyyət Planı"nın 1.2 bəndinin 2013-cü ildə icrası nəzərdə tutulan "İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə Dövlət Statistika Komitəsində məsul dövlət qulluqçuları üçün treninqlərin keçirilməsi" tədbiri ilə bağlı cari ilin mart ayının 28-i Məlumatların yayılması şöbəsi və Kadrlar şöbəsi tərəfindən Aparatın sahə şöbələri müdirlərinin müavinləri, sektor müdirləri və baş məsləhətçilərin iştirakı ilə "İnformasiya azadlığının təmin edilməsi" mövzusunda treninq keçirilmişdir. Treninqdə 35 nəfər iştirak etmişdir. Dövlət Statistika Komitəsinin Tədris Mərkəzi tərəfindən dəvət olunmuş nümayəndə Sara Ağayeva "İnformasiya azadlığının təmin edilməsi" mövzusunda geniş təqdimatla çıxış etmişdir. Sonda iştirakçıların mövzu ilə bağlı sualları məruzəçi tərəfindən cavablandırılmışdır.

